

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 57 (23.699)

1 aprel 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.

Dövlətimizin başçısı çıxışında II Qarabağ müharibəsi haqqında məlumat verərək Azərbaycanın tam qələbəsi ilə nəticələndiyini, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini, müharibə dövründə 300-dən çox şəhər və kəndin döyüş meydanında azad edildiyini bildirib. Qeyd olunub ki, noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzalayıblar. Bu Bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarılıb. Diqqətə çatdırılıb ki, Qədim Azərbaycan torpağı olan Zəngəzur indi Türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün Türk dünyasını birləşdirəcək, eyni zamanda digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər.

# Müasir kənd təsərrüfatı texnikaları məhsul istehsalının artımına və əl əməyinin yüngülləşdirilməsinə xidmət edir





Muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması sahəsində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” bu baxımdan mühüm əhəmiyyət daşıyır. Torpaq mülkiyyətçiləri və fermerlərin, eləcə də ailə təsərrüfatçılarının müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunması da məhsul istehsalını və bu sahəyə marağı artırır, əl əməyini yüngülləşdirir.



Martın 31-də “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnika və avadanlıqlarının təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

“Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Vasif Məmmədov məlumat vermişdir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Hər il müasir meliorasiya-irriqasiya sistemləri qurulur, bu hesaba yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Torpaq mülkiyyətçilərinə kənd təsərrüfatı texnikaları verilir, kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin fəaliyyəti dəstəklənir. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada fermer və torpaq mülkiyyətçiləri formalaşmışdır. Son illər muxtar respublikaya 3282 texnika və texnoloji avadanlıq alınıb gətirilmiş, onlardan 2632-si lizinq yolu ilə sahibkarlara verilmişdir. Vasif Məmmədov bundan sonra da işlərini günün tələbləri səviyyəsində quracaqlarına söz vermiş, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə hər il ölkəmizdə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Bu gün 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür. Soyqırımı qurbanlarının əziz xatirəsini yad edirik. Belə hadisələrin təkrar olunmaması üçün ölkəmiz daim güclənməli, iqtisadi qüdrətini daha da artırmalıdır. Çünki iqtisadi və siyasi qüdrəti olan ölkəyə qarşı soyqırımı törətmək də mümkün deyil.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə iqtisadiyyatın əsas qollarından biri olan kənd təsərrüfatının inkişafı diqqət mərkəzindədir. Ölkə Prezidentinin müvafiq sərəncamları ilə kənd təsərrüfatının bütün sahələri üzrə güzəştlər tətbiq olunmuş, aqrar sahədə kompleks tədbirlər həyata keçirilmişdir. Bu gün təqdimatı keçirilən kənd təsərrüfatı texnikaları da ölkəmizdə kənd təsərrüfatının və bu sahədə sahibkarlığın inkişafına dəstək, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfədir. O ölkədə inkişaf təmin olunmuş hesab edilir ki, həmin ölkənin inkişafı kənd təsərrüfatının üzərində qurulur. Kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması bütün dövrlər üçün vacibdir. Bütün bunlar nəzərə alınaraq muxtar respublikada da kənd təsərrüfatının inkişafına böyük diqqət və qayğı göstərilir.

Ali Məclisin Sədri demişdir: Ötən ilin mart ayında muxtar respublikada kənd təsərrüfatı texnikalarının təqdimatı keçirildi. Həmin vaxtdan ötən dövrdə 366 adda yeni kənd təsərrüfatı texnikası və avadanlığı alınaraq muxtar respublikaya gətirilmiş, onlardan 106-sı sahibkarlara verilmişdir. Yaradılan şəraitin və görülən işlərin nəticəsidir ki, muxtar respublikada kənd təsərrüfatı inkişaf edir, yeni sahibkarlar və fermerlər sinfi formalaşır, ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, eyni zamanda kənd təsərrüfatı məhsullarının ixracına geniş imkanlar yaranır. Həmçinin bu sahənin vacibliyi nəzərə alınaraq müzakirələr aparılır, yeni qərarlar qəbul edilir, gələcək planlar müəyyənləşdirilir və həyata keçirilir. Artıq bir neçə ildir ki, “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyəti texnika və avadanlıqları sahibkarların sifarişi əsasında alıb gətirir.

“Kənd təsərrüfatı sahəsində əl əməyi nə qədər yüngülləşərsə, bu sahəyə maraq o qədər artar, məhsul istehsalı yüksək olar”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, subsidiyaların verilməsi, güzəştlərin tətbiq olunması da kənd təsərrüfatına marağı artırmış, inkişaf təmin olunmuşdur. Ona görə də “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin əsas vəzifələrindən biri bundan sonra da sahibkarların sifarişləri əsasında yeni texnoloji avadanlıqları alıb gətirməkdir. Cəmiyyət bununla yanaşı, eyni zamanda sahibkar və fermerlərə servis xidməti də göstərməlidir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi müasir əkin və suvarma üsulları ilə bağlı əhali arasında maarifləndirmə işləri aparmalı, dövlətimiz tərəfindən bu sahədə qəbul olunmuş qərarlar tam icra olunmalıdır.

Ali Məclisin Sədri “Hər bir texnika bir ailənin iş yeri deməkdir. Hər bir texnika məhsul istehsalı, məhsuldarlığın artırılması deməkdir. Ona görə də texnikalar qorunmalı, onlar uzun müddət muxtar respublikanın kənd təsərrüfatı sahəsində istifadə edilməlidir”, – deyərək yeni texnikaların alınıb gətirilməsində əməyi olanlara təşəkkürünü bildirmişdir.

Sonra yeni alınmış texnikalara baxış olmuşdur. Qeyd olunmuşdur ki, 2020-2021-ci illərdə sahibkarların texnika təminatını düzgün təmin etmək üçün 366 kənd təsərrüfatı texnikası və texnoloji avadanlığı alınaraq muxtar respublikaya gətirilmişdir. Müasir traktorlar, taxılsəpənlər, kartof əkini, becərilməsi və yığımında istifadə olunan texnikalar, toxum istehsalı avadanlıqları, kotan, ekskavator-buldozerlər, suvarma sistemləri və digər texnikalar kənd təsərrüfatı işlərində əl əməyini xeyli yüngülləşdirəcək, məhsulun itkisiz yığımına və tədarükünə imkan verəcəkdir. Texnikalar alınarkən torpaq mülkiyyətçiləri, ailə

Ardı 2-ci səhifədə





təsərrüfatları və fermerlərin sifarişlərinin nəzərə alınması isə məhsul istehsalının artırılmasında başlıca şərtdir. Bu ilin ötən dövründə “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınmış texnikalardan 106-sı, ümumilikdə isə 2020-2021-ci illərdə 368 texnika və texnoloji avadanlıq lizinqə verilmişdir. Bununla yanaşı, bu il Türkiyə Respublikasından bələdiyyələr üçün 15 qoşqu da alınmışdır.

Muxtar respublikada yaz-tarla işlərinin başladığı bu günlərdə tələbata uyğun kənd təsərrüfatı texnikaları və avadanlıqlarının alınıb gətirilməsi mühüm əhəmiyyət daşıyır. Çünki aqrar sahənin inkişafında, ərzaq məhsulları istehsalının artırılmasında və itkisiz məhsul yığımında başlıca amillərdən biri də torpaq mülkiyyətçilərinin və fermerlərin müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunmasıdır. Yeni innovativ texnologiyaların tətbiqi həm də əkinlərin optimal müddətdə aqrotexniki qaydalara uyğun aparılmasına, məhsulun vaxtında yığılmasına, məhsuldarlığın yüksəldilməsinə, əl əməyinin yüngülləşdirilməsinə və məhsul istehsalına çəkilən xərclərin azalmasına, bazarda yerli məhsulların üstünlük təşkil etməsinə, ümumilikdə isə ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verir.

Bildirilmişdir ki, cəmiyyətin özündə və rayon bazalarında yerləşən bitkiçilik və heyvandarlıq apteklərində kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir. Cəmiyyətin anbarında kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri də vardır.

Ali Məclisin Sədri kənd təsərrüfatında yeni innovasiyaların tətbiqinin əhəmiyyətini vurğulamış, texnikalarla təminat və texniki qulluq işinin diqqətdə saxlanılması, əkin sahələrinə nəzarət olunması, yerlərdə baytarlıq apteklərinin yaradılması, Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti ixtisası tələbələrinin bu işlərə cəlb edilməsi, alınan texnikalardan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin özünüməşğulluq proqramına cəlb edilmiş ailə təsərrüfatlarına da təqdim edilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Dövlət proqramı icra olunur*

## Yeni proqram, yeni vəzifələr, yeni perspektivlər

*Hər bir ölkənin iqtisadiyyatında mühüm çəkiyə malik olan sahələrdən biri kənd təsərrüfatıdır. Əhalinin keyfiyyətli yerli ərzaq məhsulları ilə, həmçinin sənayenin xammala olan tələbatının ödənilməsində aqrar sahənin rolu danılmazdır. Odur ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda kənd təsərrüfatının elmi əsaslarla inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər davamlı xarakter alıb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”, 2021-ci il 12 mart tarixli “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” və bunlardan əvvəl imzalanmış, icrası başa çatmış və icra edilməkdə olan digər belə dövlət sənədləri kənd təsərrüfatı ilə məşğul olanlara və həm də hər birimizə göstərilən qayğının ifadəsidir. Çünki müxtəlif sahələrin inkişafı ilə bağlı qəbul edilən müxtəlif Dövlət proqramları insanların üzləşdikləri çətinliklərin qaldırılmasında, yeniliklərin tətbiqində və digər məsələlərin müasir standartlar səviyyəsində həll edilməsində mühüm rol oynayır.





Bu gün sirr deyil ki, kənd təsərrüfatı ilə məşğul olanlar sırasında güclü sahibkarlar və ailə təsərrüfatları yetişib. Hər il sahibkarlarla ənənə şəklini alan, cari ildə isə fevral ayının 27-də Naxçıvan Biznes Mərkəzində keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Hazırda muxtar respublikada məşğul əhalinin 85 faizi özəl sektorda çalışır, istehsal edilən sənaye məhsulunun 93 faizini özəl bölmə təşkil edir. Kənd təsərrüfatı olmadan nə sahibkarlığın inkişafına, nə də ərzaq təhlükəsizliyinin təmin olunmasına nail olmaq mümkündür. Ona görə də muxtar respublikada aqrar sahənin inkişafı diqqətdə saxlanılır, torpaq mülkiyyətçiləri və fermerlər müasir texnika və texnoloji avadanlıqlarla, mineral gübrələrlə təchiz edilir, subsidiya və güzəştli kreditlər verilir, aqrar sığorta sistemi tətbiq olunur. Artıq muxtar respublikada aqrar sahədə məhsul istehsalının 100 faizə yaxını özəl mülkiyyətə əsaslanır”.***

Onu da qeyd edək ki, əhalisinin 70 faizinin kəndlərdə məskunlaşdığı muxtar diyarımızda bu sahəyə davamlı qayğı illərdir ki, bəhrələrini verməkdədir.

Görülən işlərin insanları ən qiymətli sərvət olan torpağa daha sıx tellərlə bağlaması da təbiidir. Torpağa alın təri tökən hər bir naxçıvanlı torpaq adamı bunların müqabilində iqtisadiyyatımızın gücləndirilməsinə töhfə verməsini özünün vətəndaşlıq borcu hesab edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” isə bu istiqamətdə atılan növbəti addımdır. Bu proqram məhsul istehsalçılarına torpaqlardan daha səmərəli istifadə etmək, ərzaq təhlükəsizliyinə yardımçı olmaq, daxili bazarda yerli istehsalın çəkisini artırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Adıçəkilən yeni dövlət sənədində qeyd olunur ki, kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş və icrası uğurla başa çatdırılmış müxtəlif proqramlar aqrar sahədə istehsalın həcmini artırıb, əkin sahələri genişlənib, torpaq mülkiyyətçiləri, fermerlər, ailə təsərrüfatları formalaşıb, daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olunub. Məhsul istehsalının artması isə emal sənayesinin inkişafına təkan verib, ixrac potensialı formalaşıb.

Yeni proqramın məqsədi isə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracını stimullaşdırmaq, bu sahə ilə məşğul olan ailə təsərrüfatlarını formalaşdırmaq, özünüməşğulluğu təmin etməkdən ibarətdir.

Proqramın həyata keçirilməsi üçün nəzərdə tutulmuş tədbirlər planı müxtəlifşaxəlidir. İlk olaraq onu diqqətə çatdıraq ki, proqrama əsasən kənd təsərrüfatında müxtəlif istehsal sahələrinin yaradılmasında rayonların sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınacaq. Bu istiqamətdə görüləcək işlər sırasında yerli xammala əsaslanan yun tədarükü və iplik istehsalı müəssisəsinin, kompost gübrə istehsalı sahəsinin yaradılması, qarğıdalı yağı istehsalına başlanılması, qızılgül əkini sahələrinin genişləndirilməsi, gülab və gül yağı istehsalının dəstəklənməsi nəzərdə tutulub.

Qarşıya qoyulan vəzifələrdən biri müasir texnologiyalar əsasında qurudulmuş və dondurulmuş meyvə-tərəvəz emalı müəssisələrinin qurulması, bu sahədə fəaliyyətin təşviq edilməsidir. Bu məsələnin reallaşması isə o deməkdir ki, muxtar respublikamızda əhalinin ilboyu belə məhsullardan istifadəsinə imkan yaranacaq.

Proqramda ailə təsərrüfatlarının gələcək fəaliyyətləri ilə bağlı vəzifələr də öz əksini tapıb. Belə ki, onların ixracyönümlü məhsul istehsalına təşviq edilməsi, ixrac bazarları haqqında sahibkarlar və ailə təsərrüfatlarının məlumatlandırılması, ixracyönümlü məhsul istehsalçılarına lazımi şəraitin yaradılması, gömrük yoxlamalarının sadələşdirilməsi, həmçinin xidmət sahələri ilə ailə təsərrüfatları arasında əlaqələrin gücləndirilməsi nəzərdə tutulub.

Məhsul istehsalının bazarın tələbatına uyğun planlaşdırılması kənd təsərrüfatı məhsullarının istehsal, emal və ixrac potensialının gücləndirilməsinə səbəb olacaq, bunun üçün tədbirlər həyata keçiriləcək, elektron uçot-informasiya sistemi qurulacaq. Emal olunmuş kənd təsərrüfatı məhsullarının çeşidinin və əmtəəlik göstəricilərinin yüksəldilməsinə diqqət artırılacaq. Daxili bazarın tələbatının və ixrac imkanlarının təhlil edilməsinə, yeni yaradılan müəssisələrin rentabellik göstəricilərinin müəyyənləşdirilməsinə ciddi önəm veriləcək. Proqramda ixracyönümlü məhsul istehsalçılarına lazımi şəraitin yaradılması, gömrük yoxlamalarının sadələşdirilməsi məsələləri də nəzərdə tutulub.

Bütün bunlar kənd təsərrüfatına yararlı torpaqların əkin dövriyyəsinə cəlb olunmasını sürətləndirəcək və



xəritələşdirilməsi istiqamətində tədbirlər diqqətdə saxlanılacaq. Deməli, özünüməşğulluq proqramı yeni müstəvidə davam etdiriləcək, bu da aztəminatlı ailələrin məşğulluğunun təmin edilməsinə stimul olacaq.

Göründüyü kimi, proqramdan irəli gələn vəzifələrin vaxtında yerinə yetirilməsi qarşıdakı beş ildə çox mühüm məsələlərin həllinə nail olunmasını təmin edəcək. Gəlinən nəticə odur ki, “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” hər birimizə qayğının daha bir ifadəsi olmaqla, kənd təsərrüfatının dayanıqlı inkişafının tam təmin edilməsini, istehsal olunan məhsulların ixrac potensialının artırılmasını, kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulmasını, muxtar respublika iqtisadiyyatına yeni töhfələr verilməsini daha da sürətləndirəcək.

**✍ Muxtar MƏMMƏDOV**

## Naxçıvanın tikinti materialları “MosBuild-2021” sərgisində nümayiş etdirilir



“Mosbuild-2021” sərgisi Rusiya Federasiyası, Qazaxıstan, Belarus, Ukrayna və digər ölkə təmsilçilərinin iştirak etdiyi MDB ölkələri arasında ən böyük tikinti sərgisidir. Sərgidə tikinti və təmir materialları istehsalı üzrə 14 bölmədə məhsul nümayişi təşkil olunur.

Martın 30-da öz işinə başlayan “MosBuild-2021” beynəlxalq tikinti və inşaat materialları sərgisində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviq Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycanın 10 şirkəti öz məhsullarını “Made in Azerbaijan” vahid ölkə stendində təqdim edir. Şirkətlər arasında muxtar respublikada fəaliyyət göstərən “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının istehsal etdiyi tikinti materialları da nümayiş olunur.

Sərgi çərçivəsində potensial müştərilərlə görüşlər keçiriləcək, məhsulların ixracına dair müzakirələr aparılacaq. Qeyd edək ki, sərgi aprelin 2-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Azərbaycanlılara qarşı soyqırımı siyasəti: səbəbləri, nəticələri, dərsləri



AMEA Naxçıvan Bölməsində 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar "Azərbaycanlılara qarşı soyqırımı siyasəti: səbəbləri, nəticələri, dərsləri" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev 1918-ci il 31 Mart soyqırımı və bu faciənin ağır nəticələrindən danışıb. Bildirib ki, həmin qırğınların əsas qayəsi etnik balansı dəyişmək və ermənilərin mənfur planlarının reallaşması üçün zəmin hazırlamaq idi. Çıxışda ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı ilə xalqımıza qarşı törədilən erməni qəddarlığının rəsmi şəkildə bəyan edilməsindən, Prezident cənab İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamının erməni vandalizminin ifşasından, çoxsaylı tədqiqatların aparılması, beynəlxalq aləmdə təbliğinin əhəmiyyətindən bəhs edilib.

44 günlük Vətən müharibəsinin nəticələri haqqında fikir bildirən alim deyib ki, Ali Baş Komandanın səriştəli rəhbərliyi ilə aparılan uğurlu hərbi əməliyyatlar təkcə düşməni diz çökdürmədi, ermənilərin əsrlərdən bəri davam edən "missiyasına" tutarlı cavab oldu. Bu gün bir sıra dünya dövlətlərinin Azərbaycan həqiqətlərini tanıması bu istiqamətdə görülən işlərin uğurlu nəticəsidir.

Konfransda AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından dosentlər – Emin Şıxəliyev, İlhami Əliyev, Toğrul Xəlilov və Elxan Məmmədov müxtəlif mövzularda məruzələr ediblər.

Qeyd edək ki, dünən bölmədə muxtar respublika məktəbliləri üçün "Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətlərinin əsas mahiyyəti və pərdəarxası" mövzusunda interaktiv dərs də keçilib. İnteraktiv dərs 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Muxtar respublikada əhalinin keyfiyyətli rabitə və internet xidmətləri ilə təmin olunması günün tələbləri səviyyəsində qurulub

*Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində olduğu kimi, rabitə və yeni texnologiyaların inkişafı istiqamətində də nailiyyətlər əldə olunub. İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı üçün kifayət qədər imkanlar və şərait yaradılıb. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində simli və simsiz internetə çıxış imkanları mövcuddur. Sakinlər müasir rəqəmsal xidmətlərdən istifadə edirlər. Həmçinin yeni istifadəyə verilən kənd mərkəzlərində rabitə xidmətləri üçün müvafiq sahələr ayrılır. Avtomat telefon stansiyaları müasir tələblərə cavab verən elektrontipli avtomat telefon stansiyaları ilə əvəz olunur. Muxtar respublika əhalisinə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilir. Cari ilin yanvar və fevral aylarında Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic, Şərur rayonunun Şəhriyar kəndində yeni rabitə evləri istifadəyə verilib.*



Stasionar telefon şəbəkəsinin genişləndirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq cari ilin yanvar və fevral ayları ərzində muxtar respublika üzrə mövcud avtomat telefon stansiyalarının nömrə tutumları artırılıb, ümumilikdə, 409 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilib. Nazirliyin əməkdaşları tərəfindən Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərində monitorinqlər aparılır, rabitə xətlərinə və abunə qurğularına baxış keçirilir, müvafiq təmir işləri görülür, yaranan nasazlıqlar qısa zamanda aradan qaldırılır. Sıradan çıxmış taxta rabitə dirəkləri müasir üslubda hazırlanmış metal dirəklərlə əvəz olunur, istismara yararsız rabitə xətləri yenilənir. Hazırda Naxçıvan şəhərinin Mirzə Ələkbər Sabir və Səməd Vurğun küçələrində bu istiqamətdə tədbirlər görülür. Həmin tədbirlər rayon mərkəzləri və kənd yaşayış məntəqələrini də əhatə edir.

Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar geniş tətbiq olunur. Bu sahənin maddi-texniki bazasının gücləndirilməsi əhalinin informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarını yaxşılaşdırıb, bütün yaşayış məntəqələri fiber-optik xətt və sürətli internetlə təmin edilib, 4-cü nəsil mobil rabitə xidmətinin əhatə dairəsi genişlənib. Naxçıvan Dövlət Universitetinin "Kanal-35" televiziyasında yayımının həyata keçirilməsinin təmin edilməsi məqsədilə yerləşdiyi inzibati binalarda, ümumilikdə, 150 metr fiber-optik xətt çəkilib, 10 kilometr məsafədə optik siqnalın daşınması üçün 1.25 Gbps SFP modul qurğusundan istifadə olunmaqla zəruri olan rabitə əlaqəsi yaradılıb. Naxçıvan şəhərində yeni istifadəyə verilən tələbə yataqxanasının yüksəksürətli internetlə təmin olunması məqsədilə 1000 metr fiber-optik xətt çəkilməklə, GPON (Giqabit Passiv Optik Şəbəkə) avadanlığı quraşdırılıb. Hazırda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə fiber-optik xətt çəkilişi üçün zəruri tədbirlər görülür.




"Evədək optika" layihəsi də uğurla davam etdirilir. Layihə çərçivəsində 19 fərdi mənzilə fiber-optik kabel xətləri çəkilib, zəruri avadanlıqlar quraşdırılıb. Həmçinin ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında bir sıra qurumlara, yaşayış binalarına və kənd mərkəzlərinə fiber-optik xətt çəkilişi davam etdirilib, istismar müddəti ərzində fiber-optik xətt sahəsində yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində operativ və təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Əhalinin keyfiyyətli internet xidmətləri ilə təmin olunması daim diqqət mərkəzində saxlanılıb, cari ilin yanvar və fevral ayları ərzində 1217 abonent genişzolaqlı ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunub.






Həyata keçirilən kompleks tədbirlərin davamı kimi əhalinin internetə olan tələbatının artırılması məqsədilə şəhər, rayon və kəndlərdə yeni nəsil NGN tipli avtomat telefon stansiyalarında internet kartlarının sayının artırılması nəzərdə tutulmuş və bu sahədə müvafiq işlər davam etməkdədir. Artıq Naxçıvan şəhərində bu sahədə görülən işlər yekunlaşıb, hazırda rayon mərkəzlərində və kəndlərdə yeni nəsil NGN tipli avtomat telefon stansiyalarında internet kartlarının sayının artırılması yekunlaşmaq üzrədir. Bütün bunlar da, öz növbəsində, internet istifadəçisinin sayının artmasına şərait yaradır.

Ötən dövr ərzində bir sıra nazirliklərin, dövlət təşkilatlarının saytlarının dizayn, quruluş və məzmun baxımından yenilənməsi istiqamətində təhlillər aparılmış, layihələr hazırlanmışdır.

2021-ci ilin yanvar və fevral ayları ərzində vətəndaşlar, sahibkarlar, hüquqi şəxslər və dövlət qurumlarına elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilib.

Nazirlik tərəfindən müvafiq sahələr üzrə kadr hazırlığı da diqqətdə saxlanılıb, nazirliyin Aparatının, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin və rayon (şəhər) idarələrinin işçilərinin aidiyyəti sahələr üzrə qüvvədə olan qanunvericilik aktlarının, əməyin mühafizəsinin, dövlət sirrinin mühafizəsinin təşkil olunması, habelə müasir standartlara cavab verən yeni nəsil telekommunikasiya sistemləri və xüsusiyyətləri, avtomat telefon stansiyaları, onların iş prinsipləri, rəqəmsal televiziya və peyk yayımı, tezlik diapazonları və zolaqları, şəbəkə inzibatçılığı, proqramlaşdırma dilləri, informasiya təhlükəsizliyi, serverlər, məlumat bazaları, məftilli və fiber-optik xətt sahəsində zəruri biliklərə yiyələnmələri, eləcə də bilik və bacarıqlarının artırılması məqsədilə müvafiq işlər həyata keçirilib. Təşkil edilmiş müvafiq kurslarda uğurlu nəticə əldə etmiş 2 gənc rabitəçi analoq və rəqəmli elektronika üzrə sertifikatla təmin edilib. Gənc proqramçılar tərəfindən bir sıra layihələr üzrə təqdimatlar keçirilib. Hazırda İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi əməkdaşlarının zəruri biliklərinin artırılması məqsədilə onlayn tədrislər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kurslara isə, ümumilikdə, 128 qrup olmaqla, 346 dinləyici cəlb edilib. Kurslarda iştirak edən dinləyicilərə kompüterin daxili və xarici qurğuları, onların iş prinsipləri, kompüterin proqram təminatı, əməliyyat sistemləri, antivirus proqramları barədə hazırlanmış slaydlar vasitəsilə ətraflı məlumatlar verilməklə, "Microsoft Windows" əməliyyat sistemi, "Microsoft Office", internet və qrafik dizayn proqramları, eləcə də ingilis dili kursları üzrə dərslər günün tələblərinə uyğun tədris edilir.

Dövlət qayğısı sayəsində, muxtar respublika rəhbərinin rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində verdiyi mühüm tövsiyə və göstərişlərin icrası istiqamətində işlər bundan sonra da səylə davam etdiriləcək, sakinlərə keyfiyyətli rabitə və internet xidmətləri göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## "Nizami dünyası" adlı teatr müsabiqəsinə start verilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qədim və zəngin Azərbaycan mədəniyyətinin nadir simalarından sayılan dahi şair, humanist mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinin ölkəmizdə və dünyada ilboyu təntənə ilə



qeyd edilməsi ilə bağlı imzaladığı sərəncam hər yerdə milli-mənəvi dəyərlərimizin dövlət səviyyəsində himayə edilməsinin növbəti parlaq nümunəsi kimi qarşılanıb. Dövlət başçımız qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq 2021-ci ili ölkəmizdə "Nizami Gəncəvi ili" elan edib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bu il ərzində gənclərə Nizami dünyasının daha yaxından tanıdılması məqsədilə artıq bir çox tədbirlər keçirilmişdir. Silsilə tədbirlərin davamı olaraq muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin teatr studiyaları arasında "Nizami dünyası" adlı teatr müsabiqəsi layihəsi həyata keçirilir. Müsabiqənin keçirilməsində məqsəd "Nizami ili"nin qeyd olunması, şairin əsərlərində qeyd olunan insan səadəti, mənəvi yüksəklik, mənalı ömür, azad və ədalətli cəmiyyət kimi əhəmiyyətli ideyaların gənclərə təbliğ edilməsi, tələbə-gənclərin asudə vaxtlarının səmərəli təşkili, gənclərin öz yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmələrinə şərait yaradılması, istedadlı gənclərin üzə çıxarılmasıdır. Müsabiqə mart-iyun aylarını əhatə edəcək. Gənclər və İdman, Mədəniyyət nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə keçirdiyi müsabiqədə iştirak edəcək hər bir təhsil müəssisəsi müsabiqəyə yalnız bir tamaşa təqdim edəcək və həmin tamaşa Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərə həsr olunacaqdır. Əsasnaməyə uyğun olaraq tamaşaların müddəti 20-45 dəqiqə olmalıdır. Qiymətləndirmə təqdim edilən səhnə əsərinin aktyor ifası, rejissor şərhi, musiqi tərtibatı, ifaçıların səhnə mədəniyyəti meyarları üzrə aparılır. Qaliblərin müəyyən edilməsi üçün 5 nəfərdən ibarət münsiflər heyəti yaradılıb. Qaliblər təşkilatçılar tərəfindən diplom (plaket) və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

"Nizami dünyası" adlı teatr müsabiqəsinin ilk tamaşası Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının hazırladığı "Xeyir və Şər" tamaşası olub. Tamaşa Naxçıvan Dövlət Uşaq Teatrında nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***



# Dəmir yumruq

(felyeton)

*Ötən ilin payızındakı 44 günlük şanlı Vətən müharibəsindən sonra işğaldan azad olunmuş Qarabağ torpaqlarında Azərbaycanın sürətlə həyata keçirdiyi dinc quruculuq, kommunikasiya və humanitar tədbirlər davam edərkən, bir tərəfdən də bütün dünya dərin iqtisadi və siyasi böhran içindəki Ermənistandan danışmaqdadır. Görünür, leysan yağışdan sonra islanmış cücəyə bənzəyən çürük ordusunu nə zamansa gücləndirmək xülyası ilə yaşayıb revanş alacaqlarını ümid edən ermənilər cəmi 5 ay əvvəl yedikləri birinci dəmir yumruğun nokautundan tez ayılıblar. Buna görə də müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki çıxışında dediyi* ***“Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır”*** *cümləsi onsuz da can çəkişən erməni cəmiyyətinin başında ikinci yumruq kimi partladı.*

Ağıl, səbir, vətənpərvərlik və siyasi müdriklik hər bir çətin işin ən gözəl həllinə aparan düzgün yoldur. Zəhmətsevərlik, başqasının torpağına, malına göz dikməmək, insanlığa hörmət və tolerantlıq olan yerdə ən sərt təbii-iqlim şəraiti, yaxud çətin coğrafi mövqe də inkişafa mane ola bilmir. Bunu bir çox dünya xalqlarının timsalında görmək olar. Amma bunun əksinə, haralardansa qovula-qovula sonunda Cənubi Qafqazda yer yiyələnib, “yersiz gəldi, yerli qaç” məsələsindəki kimi özlərini həyasızlığa vurmuş ermənilərin belə getsə, sonları heç də yaxşı görünmür. Çünki Romanovdan Qorbaçovadək 150 ildə hamının qılığına girib, min bir feillə özlərinə sərvət toplayan ələbaxım ermənilər bir də baxıb gördülər ki, artıq zaman o zaman deyil. Yalan, fitnə, hiylə və yaltaqlıq daha işə yaramır. Ona görə də normal adam olana qədər başlarına dəyən dəmir yumruqlar bundan sonra da qaçınılmaz olacaq.

Tarixə nəzər saldıqda, işğalçı məğlub ölkələri təkrar təcavüz əməllərindən çəkindirmək məqsədilə müəyyən məhdud sayda ordu qurması şərtinə tabe etdirilməsinin, əslində, onların xeyrinə olduğunu hər kəs bilir. Şübhəsiz, Ermənistanı keçmişdəki Almaniya, yaxud Yaponiya ilə müqayisə etməyin özü də belə köklü mədəniyyətə sahib olan xalqlara qarşı hörmətsizlik olardı. Amma faşizm faşizmdir, böyüyü-kiçiyi olmaz. Ona görə də həm siyasi, həm iqtisadi, həm də digər bütün vasitələrlə Ermənistanın bir daha təcavüz iddiasına sahib ola biləcək ordu yarada bilməməsi bütün bölgənin sabitliyi üçün ən yaxşı çıxış yoludur.

“Erməni gəldi, təzə bəla gəldi!” Çoxlarına yaxşı tanış olan bu gürcü atalar sözü, əslində, ermənilərin heç zaman və heç bir yerdə nazı ilə oynamağın yeri olmadığını ən yaxşı xarakterizə edir. Hətta indiki vəziyyətlərində, yəni, sadəcə, yuxarı mərtəbədə hoppanıb-düşən dəcəl uşaqlar kimi adamı narahat edən belə xain qonşuların sabah qaniçən əjdahaya dönməyəcəyinə kim zəmanət verər ki? Nə qədər çoxdur dünyada süfrəsinin artığı ilə tazı bəsləmək həvəsində olanlar! Tarixboyu başqalarına alət olmaqdan, sadəcə, zövq almış bu etnik qrupdan nə desən, gözləmək olar. Hələ yalan, fırıldağı demirəm. Lazım gələrsə, başqasının dilini özünə ana dili seçən ermənilərin adı, soyadı, dili, əlifbası da məhz belə yaranıb. Misal üçün latınca “U” hərfini tərs çevirib hər yerdən bir qulp yapışdır, olsun erməni əlifbası. Yaxud azərbaycanlı adlarını o biri “yan” üstə qoy, olsun erməni adları. Hər şey özləri kimi tərsinə, baş-ayaq.

Bəli, erməni həm də tərs olar. Elə bu tərslikdəndir ki, başlarına dəymiş birinci dəmir yumruqdan sonra müayinə və müalicə olunub, düzgün nəticə çıxarmaq əvəzinə başlayıblar bunun səbəbini haradasa, kimlərdəsə axtarmağa. Baş akademikləri çıxıb deyir ki, bəs Ermənistan Elmlər Akademiyasına on illərboyu bir Bayraktar qədər pul ayrılmadı, ona görə müharibəni uduzduq. Generalları deyir ki, bəs “İsgəndər”ləri düzəldən rus mühəndislər kefli olub deyə, partlamayıblar. Bir başqa erməni günahları top qovan Mxitaryanda, o biriləri də Kardaşyan bacılarında görür ki, xaricdən daha çox pul göndərmədilər, əsgərlər ac qaldılar. Fikirləşirəm ki, yaxşı ki, ötən ilin payızında Qarabağda elə bir qar-yağış yox idi, yoxsa deyərdilər bəs havalar pis keçdi, deyə məğlub olduq. Yəni düzü, həmişə inkar edən tərs ermənilərin başına vaxtaşırı vurulan dəmir yumruq qədər effektiv olan başqa bir dərman, deyəsən, hələ ki, olmayacaq.

Bəlkə də, erməni tərsliyindəndir ki, İrəvan küçələrində mitinq edib, günahkar axtaranlar nədənsə bilmirlər ki, bu məğlubiyyət və ondan sonrakı düşdükləri bu dərin böhran, əslində, Uca Allahın qisasıdır. Tanrı gec edər, amma güc edər! İnanmıram ki, erməni leksikoqrafiyasında belə bir ifadə olsun. Çünki Allaha inansaydılar, 29 il əvvəl soyuq fevral gecəsində Xocalıda tamamən silahsız, köməksiz insanları məhz azərbaycanlı olduqlarına görə öldürüb, dərilərini soyub, vəhşilik etməzdilər. O gecə bunu heç kim görmürdü. Amma hər şeyi görən Allahın Azərbaycan xalqına verdiyi səbir və inam sonunda od olub ermənilərin başına yağdı. Və, beləcə, dəmir yumruğun birinci zərbəsi ilə “erməni ordusu” mifi havaya sovruldu, erməni cəmiyyətinin çürük siması faş oldu.

Bəli, tarixdə ən qanlı, ən qəddar soyqırımına imza atmış belə bir millətin bir daha işğalçı ordusu olmamalıdır. Çünki son iki yüz ilin tarixi göstərdi ki, təkcə Qarabağda deyil, yaşadığımız regionda axan bütün qanların birbaşa səbəbkarı məhz erməni faşizmi, erməni millətçiliyidir. Bir xalqın varlığının, gələcəyinin yalnız humanizm, iqtisadi və mədəni inkişaf yolu ilə mümkün olduğunu görməyən ermənilərin hər fürsət düşdükcə şivən qoparıb qan tökməməsi, beş nəfəri bir yerə yığışanda müstəqillik tələb edib torpaq istəməməsi, başqalarına zəli kimi yapışıb zəhlə tökməməsi üçün təcavüzkar ordusu da olmamalıdır. Əgər bunu istəyirlərsə, başlarına dəmir yumruqlar çaxılması yenə davam edəcək. Həm də istənilən vaxt!

✍ Əli CABBAROV

# Sədərək rayonunda anım tədbiri



Sədərəkdəki Şəhidlər xiyabanında təşkil edilən tədbirdə rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Vüqar Süleymanov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti və qətiyyəti ilə düşmən üzərində qələbə qazanan rəşadətli Azərbaycan Ordusunun qəhrəman oğulları xalqımızın ürəyində əbədi məşələ döndü. Onların qəhrəmanlıqları dillərə dastan oldu. Tarixboyu qəhrəman bir el kimi tanınan Naxçıvanın nər igidləri 44 günlük Vətən müharibəsində zəfər dastanı yazdı. Onlar doğulduqları torpaqdan yüzlərlə kilometr uzaqda canlarından keçdilər. Vətən andı içərək bu yola çıxdılar. Qələbə bayrağımızın Xankəndidə, Şuşada, Kəlbəcərdə, Zəngilanda, Laçında, Azərbaycanın işğal altındakı digər ərazilərində dalğalanması naminə canlarından keçdilər. Azad edilmiş torpaqlarımızda zəfər bayrağı dalğalananda, himnimiz səslənəndə igid Vətən oğullarının ruhu şad olur.

Vurğulanıb ki, Sədərək elinin Vətən müharibəsində canından keçən igidlərindən biri olan Ərtoğrul Nadirli 31 mart 1997-ci il Sədərək rayonu Qaraağac kəndində anadan olub. 2012-ci ildə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. 2015-ci ildə oranı əla qiymətlərlə bitirib, Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 24 iyun 2019-cu ildə Ali Hərbi Məktəbi bitirib leytenant rütbəsi alıb, Tovuz bölgəsinə göndərilib. Sonra Daşkəsən rayonuna xidməti vəzifəsinə yola salınıb. 27 sentyabrda Vətən müharibəsində iştirak etmək üçün Goranboy rayonuna ezam olunub. Murovdağ yüksəkliyinin alınmasında iştirak edib, şəhidlik zirvəsinə yüksəlib.

Şəhidin atası Hümbət Rzayev göstərilən qayğıya görə minnətdarlığını bildirərək deyib ki, yurdumuzda şəhid ailələrinə qayğı ilə yanaşılır, onların bütün problemləri vaxtında həll olunur. Oğlu Ərtoğrulun bu gün 24 yaşının tamam olduğunu deyən şəhid atası diqqətə çatdırıb ki, burada övladının məzarı başında, ad günündə anılması Vətən uğrunda canından keçənlərin heç vaxt unudulmaması deməkdir. Şəhid atası onu da bildirib ki, Ərtoğrul döyüşlərdə göstərdiyi igidliyə görə dövlət başçımız tərəfindən “Vətən uğrunda”, “Döyüşlərdə fərqlənməyə görə,” “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

✍ Ramiyyə ƏKBƏROVA

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi *2021-2022-ci tədris ili üçün Naxçıvan Qızlar Liseyinə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2021-2022-ci tədris ili üzrə ümumtəhsil məktəblərinin V sinfində təhsil alacaq qız şagirdləri arasında müsabiqə yolu ilə aparılır.

Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideynin ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış*
*5. Sağlamlıq haqqında arayış*

Sənədlər 1 aprel 2021-ci il tarixdən 25 may 2021-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyində qəbul ediləcəkdir.

Müsabiqə 11 iyun 2021-ci il tarixdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 30, ingilis dili fənni üzrə 10 olmaqla, ümumilikdə, 3 fəndən 70 sual təqdim olunacaq, sualların cavablandırılması üçün 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Naxçıvan Qızlar Liseyi, İ.Məmmədov küçəsi 2***
***Əlaqə nömrələri: (036) 545-03-47 (036) 545-23-62***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi *2021-2022-ci tədris ili üçün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2021-2022-ci tədris ili üzrə ümumtəhsil məktəblərinin VII sinfində təhsil alacaq oğlan şagirdləri arasında müsabiqə yolu ilə aparılır.

Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideynin ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış*
*5. Sağlamlıq haqqında arayış*

Sənədlər 1 aprel 2021-ci il tarixdən 25 may 2021-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə qəbul ediləcəkdir.

Müsabiqə 10 iyun 2021-ci il tarixdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 20, riyaziyyat fənni üzrə 25, fizika fənni üzrə 25, ingilis dili fənni üzrə 15, biologiya fənni üzrə 5, coğrafiya fənni üzrə 5, tarix fənni üzrə 5 sual olmaqla, ümumilikdə, 7 fəndən 100 sual təqdim olunacaq, sualların cavablandırılması üçün 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Şərur şəhəri, Sabir küçəsi 26***
***Əlaqə nömrəsi: (036) 542-30-76***

### Bildiriş

“Cahan Alış-Veriş Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından (VÖEN-0200603761) ləğv olunur.

### İtmişdir

Novruzov Taleh Süleyman oğlunun adına Naxçıvan şəhəri, Xətai məhəlləsində yerləşən torpaq sahəsinin MH-0071394 inventar nömrəli 14.07.2020-ci il tarixli çıxarışı və A-023384 inventar nömrəli 29.06.2020-ci il tarixli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

“Cahan Alış-Veriş Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200603761) hüquqi sənədləri itdiyindən etibarsız sayılır.

# Maarifləndirici görüş olub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın qəbul edilməsi əhalinin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb. Aztəminatlı ailələrin fərdi təsərrüfatlara sahib olmaları onların dövlət yardımından asılılığının aradan qalxmasına, öz zəhmətləri hesabına ailə gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına, ölkədə kiçik ailə biznesinin genişlənməsinə şərait formalaşdırıb. Proqrama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq proqramına cəlb edilmiş sosial qayğıya ehtiyacı olan şəxslərin maarifləndirilməsi məqsədilə zəruri tədbirlər icra edilməkdədir. Həmin tədbirlərin davamı olaraq Ordubad rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi və Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Baytarlıq Xidməti və Dövlət Baş Sığorta Agentliyinin əməkdaşlarının iştirakı ilə müvafiq proqrama cəlb edilən sakinlərlə görüş keçirilib.

Tədbirdə sakinlərə verilmiş aktivlərdən təyinatına uyğun istifadə edilməsi, iri və xırdabuynuzlu heyvanların saxlanılması, yetişdirilməsi və istifadə olunmasının təşkili, onlar arasında xəstəliklərə qarşı peyvəndləmə tədbirlərinin aparılması, sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb ola biləcək hadisələrin baş verməsi ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəliklər və digər zəruri işlərlə bağlı müvafiq məlumatlar verilib.

Sonda sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonra müvafiq təşkilatların əməkdaşları Ordubad rayonu ərazisində proqram çərçivəsində qurulmuş bəzi təsərrüfatlara baş çəkib, sakinlərə zəruri tövsiyələr veriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 269